çardaq onu yeni ruberoid parçaları ilə «yamamaq» lazım gəlir. Ona görə də çardağı şiferlə örtmək daha sərfəlidir. Məsləhətdir ki, quş binası dərhal etibarlı materialla örtülsün, bu çoxlu vaxta və əməyə qənaət etməyə, həmçinin çardağın altında olan döşənək materialını çürüməkdən qorumağa imkan verir. Çardağı tamamilə quru ot, küləş, ağac ovuntusu, sıyrıntı ilə örtmək lazımdır, bu həm də toyuq damının tavanını qızdırır.

**Döşənək – başlıca şərtdir.** Döşənəyin 2 növü mövcuddur: dərin və dərin olmayan. Birincinin qalınlığı 50-100 sm olur və əsasən, torf və ağac (taxta) ovuntusundan ibarətdir. Dərin döşəməni çirkləndikcə belləyir, 1-2 ildən bir dəyişirlər. Dərin olmayan döşənək nəmliyi özünə yaxşı çəkən materialdan olmalıdır. Onu nəm olan kimi dəyişirlər. Təmiz döşənək sağlam quş saxlamağın əsas şərtidir.

Dərin döşənək patoqen mikroflorani toplayır, ona görə də sənaye quşçuluğunda cavanların, həmçinin hinduşkaların saxlanmasında ondan istifadə edilməsi məsləhət görülmür.

Nəm döşənək quşların ayaqlarında müxtəlif xəstəliklər əmələ gətirir, lakin əsas qorxu göbələk xəstəliklərindəndir. Göbələk sporları nəfəs yollarına düşərək selikli qişaların iltihabına səbəb olur. Quş pis yeyir, arıqlayır, zəifləyir və tələf olur. Döşənəyi vaxtında dəyişmək onu müalicə etməkdən daha asandır. İynəyarpaqlı ağacların ovuntusundan istifadə etmək yaxşıdır, o, dezinfeksiyaedici effektə malikdir. Ovuntu rəngi qaralan kimi dəyişdirilməlidir.

**Niftulla Əzizov,**
*zootexnik*


**Redaktor: F.Nadirov**

---

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

“Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti”

Layihə
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

---

“Kösər” mətbəəsində çap olunmuşdur. Sayı 5000.


Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi

# Toyuq hini (I)




Bakı-2009

Təsərrüfatların müasir inşaat texnoloqiyasından istifadə etməklə toyuq hini tikmək imkanları məhduddur. Kəndlərdə toyuq hini ələ keçən hər vasitədən tikilir. Bununla belə, toyuq hini tikən zaman bəzi vacib xırdalıqları nəzərə almaq lazımdır ki, quş rahat yaşasın, onlara qulluq etmək asan olsun.

**Hini harada tikməli?** Hər şeydən əvvəl, gəzinti yeri dəqiqləşdirilməlidir. Əgər toyuqlara sərbəst gəzinti vermək mümkün deyilsə, onda onlar üçün volyer – gəzinti meydançası düzəltmək lazımdır. İş ondadır ki, toyuqlar həftə ərzində hər hansı səthi örtüyünü aylıq səthi örtüyünə çevirməyə qabildir. «İsrail gəzintisi» məqsədə müvafiq sayılır. Toyuqların bu gəzinti üsulunu amerikalılar tapıb, lakin İsrailin və Fransanın quş fabriklərində istifadə olunur. Üsulun mahiyyəti budur ki, quş bir volyerin sahəsini tapdayana qədər, digər volyerdə torpaq bellənir və ora ot səpilir. Toyuq zibilli quşdur, ayağının altında olan hər şeyi dimdikləyir. Odur ki, bağırsaq xəstəliklərinin qarşısını almaq üçün toyuğun altı təmiz saxlanmalıdır. Açılıb-bağlanan balaca deşik (baca) düzəltmək lazımdır ki, toyuqlar volyerə çıxa və yumurtlamaq üçün, yaxud hava pisləşəndə quş damına qayıda bilsin. Bacaların üstündə toyuqların günəş şüasından, yağışdan, yaxud qırğıdan qoruna bilinməsi üçün kiçik talvarlar düzəldilməlidir. Qışda toyuqlar talvarların altına çıxır və özlərini günə verir. Əlbəttə, yay dövründə volyerlərdə yuvalar və tarlar düzəltmək mümkündür, ancaq nəzərə almaq lazımdır ki, qarğalar, saxsağanlar və hətta sıçovullar yumurtaları daşıya bilər. Cücələri gəzintiyə buraxarkən həmişə onlara nəzarət etmək lazımdır. Cücələr üçün ayrılmış volyerlərin ətrafına xırdadeşikli metall tor çəkilməli, üstü isə hər hansı yüngül, məsələn balıq toru, yaxud parça olmayan materialla örtülməlidir. Bu, cücələri, xüsusən hinduşka balalarını soyuqlamadan etibarlı sürətdə qoruyar.

**Nədən tikməli?** Fanerdən tikmək olar, lakin fikirləşmək lazımdır ki, istilik necə təmin olunsun. İş ondadır ki, quş damında havanın temperaturu ən şaxtalı vaxtlarda da 0°C-dən aşağı düşməməlidir. Ona görə də kərpiç materiallardan da istifadə etmək olar.

**Pəncərə və qapılar qoyulmalıdır.** Əvvəla, pəncərələri böyük və hər divarda düzəltmək lazım deyil. Şərq və cənub tərəfdən 1 pəncərə kifayətdir. Çərçivələr ikiqat və çıxarılan olmalıdır. Bu, yayda şüşəni mığmığa əleyhinə tor ilə əvəz etməyə, toyuq damını yaxşı qurutmağa və havasını dəyişdirməyə imkan verir. Qışda pəncərələrə çöl tərəfdən polietilen plyonka vurulur. O, işığın qabağını kəsmir, amma pəncərəni donmağa qoymur. Bu iş üçün artıq istifadə edilmiş plyonka da yarayır.

İkincisi, qapı da cənub tərəfdən qoyulmalıdır. Qışda mülayim havada onu açıb havanı dəyişmək olar, quşlar isə binadan çıxmadan günəşlə qızınar. Qapı və pəncərənin ölçüləri barədə əvvəlcədən düşünmək lazımdır. Peyini çıxartmaq, döşənəyi dəyişmək, yem vermək və çardağa ot daşımaq lazım gələcəkdir. Ona görə də qapı elə ölçüdə olmalıdır ki, bu işlərin görülməsində əngəl yaranmasın.

**Çardağı nə ilə örtməli?** Quş binalarının çardağını adətən ruberoidlə örtürlər, amma belə çardaq çox etibarlı deyil. Qışda azca günəş çıxan kimi ruberoid isinir, qar əriyir, gün batandan sonra yalnız şaqqıltı eşidilir. Nəticədə, yaz yağışlarına qədər